# “AZƏRBAYCAN RESPUBLİKASINA İMMİQRASİYA HAQQINDA VƏSATƏTƏ BAXILMASI QAYDALARININ TƏSDİQ EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2002-Cİ İL 24 AVQUST TARİXLİ 773 NÖMRƏLİ FƏRMANINA ƏLAVƏ EDİLMƏSİ HAQQINDA
# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“İmmiqrasiya haqqında” və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının qanunlarına əlavə və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 773 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, №8, maddə 493; 2008-ci il, №3, maddə 168; 2009-cu il, №1, maddə 11) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasına immiqrasiya haqqında vəsatətə baxılması Qaydaları”nın 3-cü bəndinin birinci hissəsinə aşağıdakı məzmunda “f” yarımbəndi əlavə edilsin:

“f) Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə alınmasına əsas olmuş halların aradan qalxmadığını sübut edən sənədlər. ”.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 may 2009-cu il.

“Respublika” qəzetində dərc edilmişdir (30 may 2009-cu il, №115).